İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Sentyabr 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı




Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyev tərəfindən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 6 sentyabr 2017-ci il tarixli müvafiq Fərman imzalanmışdır.

Fərmana əsasən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində (bundan sonra - Agentlik) təsisçi səlahiyyətlərinin həyata keçirilməsi prosesinin müvafiq müddəalar üzrə aşağıdakılara həvalə edilməsi nəzərdə tutulmuşdur:

Azərbaycan Respublikasının Prezidentinə:
- Agentliyin nizamnaməsinin təsdiq olunması, nizamnamə fondunun miqdarının müəyyən edilməsi;
- illik maliyyə hesabatlarının təsdiq edilməsi;
- icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
- təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;
- xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;
- Agentliyin yenidən təşkili və ləğv edilməsi;

Agentliyə:
- inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;
- strukturunun təsdiqi.

Fərman çərçivəsində, eyni zamanda, aşağıdakı müddəaların təsdiq edilməsi öz əksini tapmışdır:
- Agentliyin ilkin nizamnamə fondu dövlət büdcəsinin vəsaiti hesabına formalaşır və 4 000 000 (dörd milyon) manat təşkil edir;
- Agentliyin fəaliyyətinə rəhbərliyi həyata keçirmək məqsədi ilə İdarə Heyəti yaradılır;
- Agentliyin İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, habelə onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

Burada onu da qeyd etmək yerinə düşər ki, Fərmana əsasən Agentlik dövlət qeydiyyatına alındığı gündən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin balansında olan əmlak Agentliyin balansına veriləcəkdir.

Fərmana uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin də, öz növbəsində, Azərbaycan Respublikası Prezidentinin aktlarının, Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi nəzərdə tutulmuşdur. Bundan əlavə Azərbaycan Respublikası Nazirlər Kabinetinə verilən tapşırılar arasında aşağıdakılar da yer almaqdadır:
- Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin balansında olan əmlakın, Agentlik dövlət qeydiyyatına alındığı gündən, Agentliyin balansına verilməsinin bir ay müddətində təmin edilməsi;
- Agentliyin investisiya əməliyyatlarının aparılması qaydası layihəsinin üç ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi.

Agentlik isə, öz növbəsində, Fərman çərçivəsində aşağıdakı istiqamətlər üzrə tapşırıqların həyata keçirilməsini təmin etməlidir:
- dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciətin edilməsi;
- strukturunun və işçilərinin say həddinin bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməsi.

Verilən tapşırıqlar arasında, eyni zamanda, Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən Agentliyin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Fərman üzrə müəyyən edilmiş məbləğdə maliyyələşmənin bir ay müddətində təmin edilməsi də öz əksini tapmışdır.

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat